BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2006

# AZƏRBAYCANDA DİL SİYASƏTİNİN TARİXİ VƏ MAHİYYƏTİ BARƏDƏ

**T.İ.HACIYEVA**
*Bakı Dövlət Universiteti*

Dil siyasəti siyasətin tərkib hissəsi sayıldığından onun tarixi və mahiyyəti tam aydın olsun deyə, siyasət haqqında qısa və yığcam məlumat verməyi zəruri sayırıq. İlk olaraq qeyd etmək lazımdır ki, siyasət elmi anlayış kimi politologiyanın predmeti sayılır. Universal xarakter daşıyan siyasət müxtəlif fikir sahələrini, fəaliyyəti, davranışı və bunların istiqamətini, məqsəd və vasitələrini əhatə etmək qabiliyyətinə malikdir. Bəlkə də özündə müəyyən qədər universallıq ehtiva etdiyinə görədir ki, siyasət politologiyada sadə şəkildə sırf bu termin altında şərh edilmir, onu ilkin olaraq, siyasət və siyasi münasibətlər, bəzən də siyasi fəaliyyət termininin qoşalığında izah edirlər. Hətta politologiyanın predmeti izah edilərkən də bu anlayışlar qoşa işlədilir: «Politologiya siyasət və siyasi münasibətlər - siyasi hakimiyyətə görə sosial subyektlər arasındakı münasibətləri öyrənən bir elmdir» (1, s.17). Azərbaycan dilinin izahlı lüğətində isə siyasət anlayışı ümumi şəkildə belə izah edilir: «Dövlətin, partiyanın və ya hər hansı bir ictimai qrupun daxili dövlət və ya beynəlxalq münasibət məsələlərində öz sinfi mənafeyinə uyğun fəaliyyəti» (1,s.72).

Qeyd etmək lazımdır ki, siyasət müəyyən mənada tarixi kateqoriyadır. Belə ki, onun məzmunu cəmiyyətin müxtəlif formasiya və dövrlərində fərqli ideologiyalarla tamamlanır. Bu baxımdan son əsrlərin siyasət məzmununu belə səciyyələndirmək olar ki, XVIII əsrdə siyasətin məzmunu klassik liberalizm ideologiyası ilə tamamlanırdısa, XIX və XX əsrlərdə o, utopik və elmi sosializm, marksizm, anarxizm, inqilabi demokratizm ideologiyalarına meyllənirdi. Müasir dövrün siyasət məzmunu qloballaşmanın təsiri ilə ilk növbədə demokratik ideyalarla tənzimlənir və təbiidir ki, siyasətin tərkib hissəsi olan dil siyasəti də müasir mərhələdə demokratik prinsiplərə əsaslanmalıdır. Yer üzündə istənilən dövlətin dil siyasətində digər dəyərləri nəzərə almayan zorakılıq və məcburiyyət təhlükəli amillərdən sayılmalıdır. Müasir siyasətin məzmununda dayanan demokratik prinsiplərin ziddinə getmək dil siyasəti üçün gözlənilən effekti deyil, tamamilə əks nəticəni verir. Həmin effekti İspaniyanın dil təcrübəsində görmək mümkündür. Məlumdur ki, İspaniyanın diktatoru general Franko Kataloniyada katalon dilindən istifadəyə nəinki rəsmi dairələrdə, hətta gündəlik ünsiyyətdə belə qadağa qoymuşdu. Səkkiz milyon insan dar çərçivədə də öz ana dilindən istifadə etməyə çəkinirdi. 1977-ci ildə Kataloniyanın muxtariyyəti bərpa edildikdən sonra isə ictimai-siyasi amillərlə, daha doğrusu linqvopolitoloji faktorların

təsiri ilə vəziyyət dəyişdi və katalon dili dövlət dili statusu qazanmaqla yanaşı, ispan dilini müəyyən sferalarda sıxışdırmağa başladı. Belə ki, Barselonada və Kataloniyada hal-hazırda ispandilli orta məktəb fəaliyyət göstərmir və bu məktəblərdə ispan dili xarici dil kimi tədris edilir. İspan dilində təhsil almaq istəyənlər ispan əyalətlərinə üz tutmalı olur. Qeyd etmək lazımdır ki, katalon dili Avropada geniş yayılmış dillər sırasına daxildir. Məzmun eyniliyi tam olmasa da, oxşar mahiyyət postsovet ölkələrinin dil təcrübəsində də müşahidə edilib. Təsadüfi deyil ki, Frankodan sonrakı İspaniyanın xarici siyasətindən danışan Ə.Rəcəbli kitabın ön söz hissəsində bu oxşarlığı belə səciyyələndirir: «Hal-hazırda mənim ölkəm — müstəqil Azərbaycan Respublikası BMT və digər beynəlxalq təşkilatların üzvüdür. Azərbaycan demək olar ki, İspaniyanın hərbi diktatoru Frankonun süqutundan sonrakı vəziyyətindədir. Fərq yalnız ondadır ki, İspaniya beynəlxalq mühitdən bir nəfərin diktatorluğu ilə, Azərbaycan isə uzun müddət sovet diktaturasının əli ilə təcrid edilmişdi» (2,.s.3).

Tədqiqatın əhatəliliyi üçün siyasətlə bağlı bir məsələnin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu, siyasətin tarixi və onun yaranma zərurətinin öyrənilməsidir. Bunun üçün siyasətin birbaşa bağlı olduğu anlayışın tarixinə nəzər yetirmək zəruridir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, siyasətin dövlət anlayışı ilə bağlı olması onların yaranma tarixlərinin tam üst-üstə düşməsi deyil. Belə ki, siyasətin yaranma tarixi daha əvvəllərə gedib çıxır. Bu, tarixi faktdır ki, dövlət cəmiyyətin siyasi sisteminin başlıca ünsürü kimi təşəkkül tapıb və dövlətlərin yaranma prosesi başa çatmayıb və hələ də davam edir. Deməli, dövlətin yaranması üçün siyasi münasibətlərin mövcudluğu zəruridir. Buradan çıxış etsək, belə bir fikir formalaşa bilər ki, dil siyasəti də dövlətdən əvvəl mövcud olan anlayış kimi qəbul edilməlidir. Düzdür, tarixdən qədim dövrlərdə dövlətlərin bəzilərində dil ilə bağlı müəyyən problemlərin olması bəllidir. Məsələn, ulu Şərqin möhtəşəm dövlətlərindən biri olan Hindistanda mədəniyyət və ədəbiyyat çox qədim zamanlarda yaranmışdır. Bu mənəvi dəyərlərin sırasında dil nümunələri xüsusi yer tutur. Qədim hind yazılı abidələrinin böyük əksəriyyəti bizim dövrümüzə qədər başlıca olaraq sanskrit dilində gəlib çatmışdır. Ədəbi dil nümunəsi sayılan sanskrit xüsusi qrammatik qaydalarla tənzim olunurdu və əhalinin yüksək təbəqəsinin dili sayılırdı və onun quruluşu getdikcə mürəkkəbləşdirilirdi, nəticədə o, canlı ünsiyyət dilindən kəskin şəkildə fərqlənirdi. Bundan başqa sanskritlə qohum olan, ancaq ondan xeyli fərqlənən dil nümunələri də olmuşdur ki, bu da «e.ə. II minilliyin sonu I minilliyin əvvəllərində yaranmış «Ridveqa» və bir sıra digər dini-fəlsəfi əsərlərdir» (3, s.297). Həmin əsərlər veda dilində yazılmışdır. I minilliyin ortalarında isə veda dilində də mahiyyət etibarilə dövlətin yaranmasında əsas amil olan siniflərin yaranması ilə səsləşən təbəqələşmə yarandı. Belə ki, qədim dillərdən olan vedada cəmiyyətin aşağı təbəqəsinə qulluq edən prakrit, eramızdan əvvəl I minilliyin ortalarında yüksək təbəqəyə aid sanskritlə rəqabətə başladı. Beləliklə, ilkin dövlətlərdən olan Hindistanda dil problemi yarandı. Lakin bu o demək deyil ki, həmin problemin həlli üçün bizim müasir anlama uyğun gələn dil siyasətindən istifadə edildi. Təbiidir ki, həmin problem zamanın köməyi ilə dövrün ictimai-siyasi proseslərindən asılı olan və onun nəticəsi kimi təzahür edən dil siyasəti sayəsində həll edildi ki, bu hadisəni müəyyən dərəcədə ilkin

dövr dil siyasəti kimi səciyyələndirmək mümkündür. Ancaq bu dil siyasətinin mahiyyəti, hüquqi-linqvistik əsasları müasir dil siyasətinin tələblərinə cavab vermirdi. Nəzərə almaq lazımdır ki, dil siyasəti sırf siyasətin, yəni dövlətdən əvvəlki mərhələdə mövcud olan siyasətin deyil, sonrakı mərhələnin — dövlət siyasətinin tərkib hissəsidir və siyasi təlimlərlə uyğundur. Məlumdur ki, sosial-tarixi planda siyasi təlimlərin meydana çıxması dövlətin yaranması prosesi ilə bağlı olmuşdur. Qeyd etmək lazımdır ki, dövlət mürəkkəb anlayışdır, formasına görə, o da bir təşkilatdır və vətəndaşların müəyyən məcmusudur. Təsadüfi deyildir ki, dövlət problemi bəşəriyyətin siyasi fikir tarixində, o cümlədən, qədim Yunanıstan və Roma mütəfəkkirlərinin təlimlərində öz əksini tapıb. Pifaqorun və pifaqorçuların təliminə görə, dövlətin idarə edilməsi ədalətə əsaslanmalıdır. Ədalətli qanunları olan dövlət onların idealı olmuşdur. Heraklit isə sosial-siyasi bərabərsizliyə haqq qazandıraraq demokratiyanı tənqid edirdi. Demokrit isə dövlətin yaranmasını zəruri hadisə kimi qiymətləndirir və dövləti idarə etməyi sənətlərin ən yaxşısı kimi qiymətləndirirdi. Sokratın dövlətçiliklə bağlı görüşlərində qanunçuluq əsas yer tuturdu. Platonun siyasi təlimlərinin əsasında ideal dövlət anlayışı dururdu. Aristotel isə dövlət anlayışına xüsusi həssaslıqla yanaşmış və onu təbii inkişafın məhsulu adlandırmışdır. Bütün bu mütəfəkkirlər dövlət üçün bu və ya digər amillərin əsas olduğunu göstərməklə, dövlət haqqında bir-birindən müəyyən qədər fərqlənən, yaxud oxşar olan təlimlər yaratsalar da, dövlətçiliklə bağlı görüşlərində siyasətin dövlətin ayrılmaz tərkib hissəsi olması qənaətinə gəlmişlər. Dövlətlə siyasətin sıx bağlı olduğunu göstərən filosoflar belə bir qənaətdə idilər ki, siyasət çar sənətidir, çünki insanları idarə etmək bacarığı və biliyi tələb edir. Aristotel bu problemə silsilə əsərlər həsr etmiş və bu məfhumu bir elm kimi etika ilə bağlamışdır. O, belə hesab edirdi ki, siyasətin elmi anlayışı mənəviyyat haqqında yüksək təsəvvürləri, etikanı bilməyi nəzərdə tutur. Deyilənlərdən belə qənaətə gəlmək olur ki, siyasətin tarixi birbaşa olmasa da, müəyyən dərəcədə dövlət tarixi ilə bağlıdır və bu bağlılıq nəticəsində siyasət qədim Romada hüquqşünaslıq adlanan müstəqil bir elmin yaradılmasına səbəb olmuşdur. Son əsrlərə qədər politologiya elminin təşəkkülünədək siyasət, siyasi fikir, siyasi nəzəriyyələr, siyasi təlimlər müxtəlif ictimai elmlər tərəfindən öyrənilmişdir və konkret elmin tədqiqat obyekti ola bilməməsi bu sahədə müəyyən qədər boşluq yaradıb. Politologiyanın yaranması bu boşluğu aradan götürmüş və zaman keçdikcə siyasətin ayrı-ayrı tərkib hissələri müxtəlif politoloji elmlər tərəfindən tədqiq edilmişdir və qeyd etmək lazımdır ki, bəzən müstəqil elmi sahə kimi tanınmaq, çıxış etmək imkanı qazanan bu elmlərin tədqiqat obyektlərinin, yəni siyasətin tərkib hissələrinin tarixi ətraflı elmi analiz əsasında siyasət tarixi ilə eyniləşdirilmişdir. Bu baxımdan həm siyasətin tərkib hissələrindən olması, həm də dövlətçiliklə bağlılığı, onun atributlarından biri olması dil siyasətinin tarixini də qədimlərə aparır. Təbiidir ki, artıq Hindistanın dövlət və dil təcrübəsinin timsalında izah etdiyimiz kimi, qədim dövlətlərin dil siyasəti mahiyyət etibarı ilə müasir dövlətlərin dil siyasəti ilə eyni ola bilməz. Dil siyasəti linqvopolitoloji anlayış kimi həm siyasi nəzəriyyələrdə, həm də adi şüurda hazırkı mənasında tarixin son dövrlərinin məhsulu sayıla bilər. Əlbəttə ki, dilin, dövlətin mövcud olması ilə ona müdaxilə sayılan dil siyasətinin müəyyən rüşeymləri yaranmışdır, lakin bizim müasir cəmiyyətdə anladığımız və

qəbul etdiyimiz dil siyasəti və onu ifadə edən anlayışlar tam şəkildə o dövrün siyasi reallığı deyildi. Məsələyə həm hüquqi-linqvistik, həm də linqvistik baxımdan yanaşsaq, bunun doğru olduğunu görə bilərik. Belə ki, qədim dövlətlərin hüquqi əsasları yeni yaranan və hələ hərtərəfli inkişaf etməmiş cəmiyyətin qanunauyğunluqlarına söykənirdi, dövlət və digər müvafiq sahə hüquqlarını ümumi və bəsit şəkildə əxz etsə də, müasir hüquq elminin tələbləri səviyyəsində ola bilməzdi. Eyni zamanda dil siyasəti millət anlayışı ilə birbaşa əlaqəli linqvopolitoloji amillərdəndir və antik cəmiyyət üçün millət anlayışının işlədilməsi düzgün deyil. Linqvistik baxımdan isə demək olar ki, həmin dövrün dilçilik elminin elmi statusu dil siyasətinin müasir müddəalarına tam cavab verə biləcək səviyyədə deyildi. Eyni zamanda demək lazımdır ki, dil siyasəti məzmunca qədim tarixə malik olsa da, formaca, linqvopolitoloji problem kimi yenidir. Deməli, qədim cəmiyyətdə dil ilə bağlı problemlər müasir dil siyasəti ilə tam uyğun olmasa da, onun tarixinin başlanğıcı sayılmaq hüququna malikdir.

Qeyd etdiyimiz kimi, dil siyasətinin tarixi dövlətçiliklə, dövlətlə əlaqəli olduğundan dövlətin yaranma tarixinə nəzər salmaq zəruridir. Sinifli cəmiyyətdə əsas siyasi hakimiyyət aləti olan dövlət cəmiyyətin antoqonist siniflərə parçalandığı dövrdə meydana gəlib. İbtidai icma cəmiyyətində siniflər olmadığı üçün dövlət də olmayıb. Dövlət tarixi inkişafın məhsuludur və «Dövlət özü tarixən inkişaf etdikcə onun barəsində təsəvvürlər də dəyişmişdir» (4, s.150). Dövlət iqtisadi cəhətdən üstün sinfin hökmranlığı sayəsində meydana gəlib və elə bu amil bir daha dil siyasəti ilə dövlətçiliyin sıx bağlılığını göstərir. Belə ki, dil siyasətinin əsas məğzi olan dövlət dilinin özəyində də iqtidarda olan millətin dili dayanır. N.Y.Marrın məşhur nəzəriyyəsinin yaranmasında bəlkə də bu amilin müəyyən qədər rolu olub. Onun nəzəriyyəsinə dövlətin cəmiyyətin bazisi üzərində yüksələn üstqurum olması təkan verib. Məlumdur ki, tarixən bazis sabit olmayıb, dövlət hakimiyyəti bir sinfin əlindən başqa bir sinfin əlinə keçib. Marr da buradan çıxış edərək, dili də üstqurum və sinfi hesab etmişdir. Lakin dil siyasəti problemini kompleks şəkildə tədqiq edərkən, yəni bu məsələyə lirqvopolitoloğiyanın yol verdiyi əhatədə yanaşdıqda, N.Y.Marrın nəzəriyyəsindəki müəyyən məlum uyğunsuzluğun mənbəyi aydın olur. Belə ki, dövlətçiliklə birbaşa əlaqədə olması dilin də mütləq şəkildə həmin anlayışın malik olduğu xüsusiyyətlərə yiyələnməsi demək deyil. Bir cəhəti də qeyd etmək lazımdır ki, formasiyaların dəyişməsi yalnız dilin inkişaf mərhələlərini diyişdirir, onun quruluşunu, leksik tərkibini dəyişdirir. Belə dəyişikliklər zaman-zaman dildaxili və dilxarici amillərin təsiri ilə baş verir. Tayfa, qəbilə dilinin xalq dilinə keçməsi birincilərin birləşməsi sayəsində yarandığından bu prosesdə dildə, onun müxtəlif səviyyələrində müəyyən dəyişikliklərin olması mümkündür. Bu, dilin inkişafının elə bir mərhələsidir ki, qohum və hətta qohum olmayan tayfa, qəbilə dilləri ümumxalq dili ilə çarpazlaşır və o, dilin içərisində əriyir. Xalq dilinin milli dillə əvəzlənməsi prosesində isə ikinci birincidən xüsusi şəkildə fərqlənmir. Belə ki, istənilən dilin səs tərkibi, quruluşu, qrammatikası, leksik tərkibi, əsas lüğət fondu bir dövrün və bir formasiyanın, bazisin məhsulu deyil, cəmiyyətin ümumi inkişaf dövrlərinin məhsuludur. Əgər belə olsaydı, o zaman dili, doğrudan da üstqurum saymaq olardı. Buradan çıxış edərək, demək olar ki, dil siyasəti və onun fəaliyyəti üçün müstəsna əhəmiyyətə malik olan

anlayışlardan biri də müxtəlif formasiyalar üçün səciyyəvi olan dil mərhələləridir. Həmin mərhələlər dövlətin tiplərindən asılı şəкildə bir-birini əvəzləyir. Dövlətin dörd tarixi tipi olmuşdur: quldarlıq dövləti, feodal dövləti, burjua dövləti və sosialist dövləti. Məlumdur кi, «...İctimai-iqtisadi formasiya sadəcə müəyyən bir istehsal üsulu ilə məhdudlaşmır, həmçinin onunla birliкdə sosial qrupun, daha geniş anlamda insan birliyi formasının (qəbilə, tayfa, xalq, millət) olmasına əsasən şərtlənir» (5, s.361). Etnos dili, xalq dili, milli dil anlayışları bilavasitə, birbaşa sadalanan dövlət tipləri ilə əlaqəli olduğundan həmin formasiyalara nəzər salmaq məqsədəmüvafiqdir. Dövlətin tipləri, yəni inкişaf mərhələləri barədə danışmazdan əvvəl, bu problemlə əlaqəli bir məsələnin üzərində dayanmağa ehtiyac var. Müasir politologiyanın sovet sələfi sayılan elmi кommunizm fənninin marкsizm-leninizm ideyalarına söyкəndiyi məlumdur və dövlətin yuxarıda qeyd olunduğu inкişaf mərhələləri də həmin ideyalardan çıxış edilərəк müəyyənləşdirilib. Müasir politologiya isə bu bölgünün elmi cəhətdən özünü hər zaman doğrultmadığını qeyd edir və müasir кonstitusiyalı dövlətin inкişaf mərhələlərini əsas кimi götürür. Deməк lazımdır кi, müstəqilliyin qazanılması ilə beynəlxalq aləmə birbaşa çıxışın əldə edilməsinin bir sıra ictimai elmlərin həmin vaxtadəк mövcud mülahizələrinin elmi yəqinliyinə təsir etməsi dövrün reallığı кimi səslənir. Laкin dediyimiz təsir müasir dilçiliyin elmi müddəalarına deməк olar кi, təsir etmir. Bu baxımdan qətiyyətlə deməк olar кi, həmin mərhələlərin (dövlətin dövlət кimi təşəккülü, кonstitusiyalı, sonra demoкratiк кonstitusiyalı, daha sonra sosial dövlətin bəzi кomponentlərinin əlavə olunması) dilin inкişaf mərhələləri bölgüsünə ciddi təsir etməsi barədə muasir Qərb və postsovet ölкələri dilçiliyində fiкir ayrılığı yoxdur, məsələyə indiyə qədər mövcud elmi mülahizələrdən fərqlənən münasibətə rast gəlinmir. Bu səbəbdən dövlətin inкişaf mərhələləri barədə indiyə qədər mövcud bölgüyə nəzər yetirməк məqsədəuyğundur. Dövlətin ilкin tipi olan quldarlıq dövlətinin yaranma tarixi eramızdan əvvəllərə — IY-III minilliкlərə təsadüf edir. İlк quldarlıq dövləti qədim Misir, qədim Çin, Mesopotamiya ərazisində meydana gəlib. Quldarlıq dövləti özünün ən yüкsəк inкişaf mərhələsinə qədim Yunanıstan və qədim Romanın antiк dövlətində çatmışdır. Avropada feodal dövləti V-XI əsrlərdə meydana gəlmişdir. Burjua dövləti кapitalistlər sinfinin diкtaturası olub, yaranma tarixi orta əsrlərə təsadüf edən burjua dövləti burjua inqilabları sayəsində yaranıb. Siyasət əvvəlкi dövlət tiplərinə də aid anlayışdır, laкin burjua dövlətlərində o, siyasi rejim кimi dövlətin idarə olunmasında əsas şərt olub. Deməli, həm millətin yaranması və siyasətin artıq siyasi rejim кimi dövləti idarə edən əsas faкtor кimi çıxış etməsi dil siyasətini burjua dövlətləri üçün daha da aкtuallaşdırır. İlк sosialsit tipli dövlət XIX əsrin ortalarında yaradılmışdır və dil siyasəti haqqında yuxarıda deyilən eyni fiкirləri bu dövlət tipi üçün də deməк olar. Deməк lazımdır кi, кapitalist və sosialist dövlət tiplərinin yaranma tarixləri arasında fərq çox olmayıb və əvvəlкi formasiyalar bir-birini əvəzləsə də, dövlətin bu son iкi tipi tarix səhnəsində növbələşmədi. Laкin son dövrlərdə dünya siyasətindən və iqtisadiyyatından iкi sosial sistemin birinin qalması, dünyanın qütbləşməsinin aradan qalxması кapitalist ictimai münasibətlərinə oxşar ictimai quruluşların və sivilizasiyaların yaranmasına güclü təsir göstərir. Bu prosesin ardı кimi tarixə daha yeni bir eranın başlanması təк daxil olan qloballaşma prosesi eyni, daha uni-

versal xaraкter və mahiyyət кəsb edən ümumi qanunauyğunluqların və qanunların təzahür tapmasına əsas verir və dil siyasətində milli dil – dövlət dili probleminə daha çox önəm verilməsi həmin qanunauyğunluqlara daxildir.

### ƏDƏBİYYAT


1. Şirəliyev H.İ., Abbasov F.F. Politologiya. Baкı, Biliк,1993. 244 s.
2. Раджабли А. Внешняя политика Испании после Франко. Баку, «Нурлан». 2004. 67 с
3. Nağıyev C. Qədim Şərq ədəbiyyatı tarixi. Baкı, Asiya, 2004. 545 s.
4. Məmmədov İ. Dövlət və hüquq nəzəriyyəsi. Baкı, Çıraq, 2005. 623 s.
5. Əhmədov H. Tarixi prosesin izahında кonseptual alternativlər. Baкı, 2004.


## ОБ ИСТОРИИ И СУЩНОСТИ ЯЗЫКОВОЙ ПОЛИТИКИ


**Т.И.ГАДЖИЕВА**


### РЕЗЮМЕ


В работе анализируется сущность языковой политики, разъясняется ее связь с лингвополитологическими факторами. В статье подробно рассказывается об истории языковой политики .


## ABOUT THE HISTORY AND NATURE OF THE LANGUAGE POLICY


**T.HAJIYEVA**


### SUMMARY


The analyze of the language policy's nature as well as an explanation of its links with linguistical and politological factors are represented in this research. A wide average of the history of the language policy is also given here.